# Ürəklərin dilini ürəklərlə anlamaq

### Şəhid anası

İnsan var ki, simasında bulud var, şimşəklər gözlərinə, qar soyuqluğu baxışlarının dərinliyinə siraət edər, etinasızlıq, bədbinlik bəxş edər qarşısındakina. İnsan var ki, nə qədər dərdlərlə belə yüklənsə də, neqativliyini biruzə verməz və insanlara müsbət enerji bəxş edər. Bu o insanın xarakterindən irəli gələr.



Bir qadını tanıdım. Onu mənə tanıdan vətən uğrunda canını fəda edən bir şəhidin sorağı oldu. Qəbələnin ən gözəl guşələrindən biri olan Şəfili kənd sakinidir o xanım. Üzünə baxanda güneşi görürəm sanki. Bir mülayimlik, gülümsərlik görünür simasında. Ona yaxın olduqca özünə doğma, daha yaxın insan bilir və söz-söhbətinə qulaq asdıqca heyranlığa qərq olursan.

Dağ kimi dərdini sıldırım qaya kimi özündə, böyük qəlbinin hər anındakı döyüntülərində gizlədən, gözlərinin dərinliyinə çökən acısını, yağmur buludu kimi bir himə bənd göz yaşını yerli-yerində günəş şəfəqlərinə bənzər gülümsərliyi ilə əvəz etməyi bacaran bir qadındır O! Qəlbindəki arzu silsiləsini övladlarının savadlı və işgüzar, zəhmətsevər, vətənpərvər xarakterdə böyütməyə sərf edən bir insandır o. Güclü biridir. Vətən bayrağını son libas seçən, yağı tapdağından əsir torpaqlarımızı azad edərkən göz qırpmadan öz canını fəda edən bir nər oğulun anasıdır O! Naləsi göylərə bülənd olan, xatirələr yaddaşında hər an canlı-canlı danışan bir anadır O. Oğul toyunda qol götürüb oynamaq arzusu, nəvə həsrətli, hər gün göy qübbəsinə istinadən şəhid övladını görmək istəyən bir anadır o-şəhid-Azər Musayevin anası-Qızbəs xanım!

### Bu dağlarda, yamaclarda, izi də var, səsi də var...

Öz təbiiliyini saxlayan ən gözəl kənddir Şəfili, əsl Azərbaycan kəndi. İnsanları da insanlığa xas xarakterləri, milliliyi tam mənada qoruyub saxlayan, qonaqpərvər, saf niyyətlidirlər. Belə insanların bir övladıdır o! Göz oxşayan yamacların, dərələrin, dağların, bu torpağın hər daşında izi vardır Azərin. Quşların səsində, küləklərin mehində, səhərlərin şehində, güllərin gözəlliyində, yağışların həzinliyində, kükrəyişində belə Azərimin səsi var, izi var. Çayların zümzüməsi, bəzən də coşqu səsi onu xatırladar. Bütün bunlara rəğmən vətənin hər qarışı, torpağın hər zərrəsi şəhidlərin ruhlarının məskənidir. Axı onlar bu torpağın, bu vətənin azadlığı uğrunda vuruşdular və vətənin zəfər qoxulu yeni tarixini yazdılar.

***Çağlamaq istəyirəm dağda şəlalə kimi,***
***Sərilmək istəyirəm çöllərə lalə kimi.***
***Dərya olub, nəhr olub çalxanmaq istəyirəm,***
***Göylərdə ulduz kimi mən yanmaq istəyirəm.***
***Şığımaq istəyirəm, başsız küləklər kimi,***
***Bəslənmək istəyirəm bütün ürəklərdə mən***
***Arzu diləklər kimi...***

Ürəyində düşündüklərini öz həyat və yaşayışı ilə təsdiq etdi Azər. Öz əməlləri, qəhrəmanlığı ilə ürəklərə məskən saldı, diləklərə köçdü...

### Tanıyırsınızmı?..

Musazadə Azər Çingiz oğlu 1998-ci ilin iyunun 25-də Şəfili kəndində dünyaya göz açıb. 2004-2008-ci illərdə Şəfili kənd ibtidai məktəbi, 2008-2015-ci illərdə Çarxana kənd orta məktəbini bitirmişdir. 2015-2019-cu illərdə Azərbaycan Texniki Universitetinin elektro-energetika mühəndisliyi fakültəsini bitirmişdir. Ali məktəbi başa vurduqdan sonra həqiqi hərbi xidmətə çağırılan Azər vətənin müsəlləh əsgəri kimi hərbi xidmətini müvəffəqiyyətlə yerinə yetirirdi. Müharibənin labüdlüyünü hiss edir və erməni vəhşiliklərinin, son dövr hadisələrinin bir kəskin cavabı olacağını hiss edirdi. Hərbi münaqişənin yalnız Vətən Müharibəsi yolu ilə həll ediləcəyini duyurdu.

2020-ci ilin sentyabrın 27-də Ali Baş Komandan, Prezident İlham Əliyevin səfərbərlik elan etdiyi zaman əsl vətəndaş kimi hərəkət etdi. Sentyabrın 29-dan döyüşlərdə iştirak etdi. Tərtər istiqamətində gedən döyüşlərdə döyüş zamanı itkin düşdü. Ancaq bir müddət sonra nəşi tapılaraq doğulduğu kəndə gətirildi və dəfn olundu. Ölümündən sonra onun igidliyi ölkə başçısı Ali Baş Komandan tərəfindən qiymətləndirildi.

O, “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

Ən böyük dəyəri isə şəhadətə qovuşaraq şəhid adı ilə təsdiqlədi, bahar ömürlü qəhərman kimi yaddaşlarda əbədiyaşarlıq qazandı.

### Əsgər baxışı

Əsgər baxışında torpaq göyərir, meşələrsə üfüqlərəcən uzanar. Əsgər baxışında quş səksəkəsi, qaya təmkini... anaya, ataya sonsuz istək, narahatlıq, həsrət oxunar... Əsgər baxışında doğmalara qürur bəxş olunar.

Bu gün hansı döyüşçüyə, qaziyə baxırıqsa, canlı olaraq bu baxışlarla qarşılaşır və qürurlanırıq. Hansı şəhid övladın şəklinə baxırıqsa, baxışlar altında yanğı və qürur hissindən həyatın varlığını belə unuduruq, yalnız bu baxışların dünyasına qapanırıq. Dastan danışır bu baxışlar. Ta uşaqlıq nağıllarından tutmuş döyüş qəhrəmanlıqlarınadək. Ölməzliyə gedən yolun yolçuları kimi, qısa və mənalı bir ömrün, əbədiyaşarlığın baxışlarda canlı, yaddaşlarda nağılvari, əfsanəvi yaşamını söylər.

### Şəhid otağı

Onun otağında sükuta dala bilmədik. Şəkillər, xatirələr danışdı, hərəsi bir əsər, dastan danışdı. əzizləri, doğmaları seçmək olmur bu otaqlarda. Hamının üzü, baxışı, ağrısı, qürur hissi eyni. Hər kəs hər bir şəkil və xatirə əşyaları ilə bir anını əbədiləşdirmək istəyir, qəlbinin istəyi ilə. Bəzən maketlərlə çəkilən şəkillər canlı görsənər. Ancaq qəlblərdə danışar onlar, baxışlarda oxunar, baxışlarla qarşılanar, baxışlarla yola salınar. Şəhid otağının qonaqları... Hər kəsin belə otaqların qonaqları olmaq, baxışlarla danışmaq, ürəklərin dilini ürəklərlə anlamaq müqəddəs borcudur-vətəndaşlıq borcu!

**BİBİXANIM.**

# Zamanımızın qəhrəmanı

Hər zamanın öz qəhrəmanı olur. Onların şəxsiyyəti bədii əsərlərin, filmlərin baş qəhrəmanına və ən əsası gələcək nəsillər üçün bir örnəyə çevrilir. Qəhrəmanlıq insan qəlbinin mənən zənginliyindən irəli gəlir. Qəhrəmanlıq davranışı ən təhlükəli vəziyyətə də açıq gözlə baxaraq öz ləyaqəti, təmkini ilə müasir və gələcək nəslin tərbiyəsində müstəsna rol oynayır. Belə insanlar milləti və dövləti qarşısındakı misilsiz xidmətləri ilə seçilən şəxslər və Vətən, xalq uğrunda canlarını fəda edən - şəxslər şəhidlərdir. Məhəmməd peyğəmbər (s.a.s) şəhidlər haqqında demişdi: "Şəhid cənnətdədir, Allah qatında xeyirli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ancaq şəhidlər bundan müstəsnadır. Çünki şəhidlər şəhid olmanın necə üstün mərtəbə olduğunu bildikləri üçün yenidən şəhid olmaq üçün can atarlar".

Müasir Azərbaycan tarixində ən çox şəhidlər Birinci və İkinci Qarabağ müharibələrində verilib. 2020-ci il 27 sentyabr tarixində başlanan və 44 gün davam edən Vətən Müharibəsi nəticəsində Azərbaycan öz dədə-baba torpaqlarını mənfur düşməndən xilas etdi. Torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycanın vətənpərvər oğulları canlarından keçdilər və zamanımızın qəhrəmanına çevrildilər. Vətən Müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan biri də Ceyhun Nüsrət oğlu Şalıyevdir.

### Kimdir o?

1990-cı ildə Nüsrət kişi ilə Sədaqət xanım ailə qurur. Ceyhun isə Şalıyevlər ailəsində gözəl bir may səhərində dünyaya göz açır. 1992-ci ildə yağı düşmənlərimiz ölkəmizə hücum edəndə Nüsrət kişi ailəsini Allaha əmanət edib, vətənini qorumağa gedir. 1994-cü ildə atəşkəs olsa da, evinə dönməmiş, Murovdağ istiqamətində hərbi xidmətdə qalmışdır. Həmin ilin may ayının 24-də Nüsrət kişiyə şad xəbər gəlmiş: "Gözün aydın, oğlun olub, igid Ceyhunun dünyaya gəlib" deyilmişdi. Həqiqətən də həmin gün Azərbaycanın daha bir igidi dünyaya göz açmışdır. Ata isə oğlunu üç aydan sonra görə bilmişdi. Az sonra ailə Rusiya Federasiyasının Voronej şəhərinə köçür. Ceyhun isə lap kiçik yaşlarından oxumağa, elmə maraq göstərirdi. Ceyhunun savadı, intellektual səviyyəsi o qədər yüksək idi ki, bu da onu yaşıdlarından fərqləndirirdi.

Ceyhun 4 yaşında artıq Voronej şəhərində bağçaya getməyə başlayır. O ilk günlərdə rus dilini bilməsə də, tezliklə rus dilini öyrənir. Ceyhun uşaq yaşlarından nağıllar, şeirlər yazmağa başlayır və həmçinin çox gözəl şəkillər çəkməyi öyrənir. Ən çox çəkdiyi şəkillər isə müxtəlif ölkələrin bayraqları və təyyarə şəkilləri olur.

Artıq Ceyhun məktəb yaşına çatdıqda öz yaşıdları kimi məktəbə 1-ci sinifdən yox, 2-ci sinifdən başlayır. Məktəb dövründə də savadı ilə öz yaşıdlarından fərqlənməyi bacarır. Ceyhunu uşaqlığından hamı əziləyirdi-gözəl davranışına görə, könüləyatımlı, məntiqli, mahiyyətli söhbətlərinə görə, hamıya xoş gələn düşüncələrinə, ədəb-ərkanına görə...

Hər kəs bilir ki, uşaqlar oyuncaqlarla oynamağı sevər. Lakin Ceyhun mütaliəni sevirdi. O bütün uşaqlığını mütaliə ilə keçirər və son qəpiyini də kitablara verərmiş. Oxuduğu kitablar isə yaşını qabaqlayarmış.



Rusiyada yaşayarkən tez-tez atasından “Azərbaycana nə vaxt qayıdacağıq”,-deyə soruşarmış. Azərbaycana qayıdıb orada yaşamaq istədiyini deyərmiş. 7-ci sinifə qədər Voronej şəhərində təhsil alan Ceyhunun vətənə qayıtmaq istəyi 2008-ci ildə baş tutur və ailəsi ilə birgə Azərbaycana qayıdır, təhsilini Bakı şəhərində davam etdirir.

Sinif yoldaşlarından öyrənmə həvəsiylə fərqlənirdi Ceyhun. Rus dilini yüksək səviyyədə bilməsi, danışıqda tələffüz xətalarına yol verməməsi müəllimləri razı salırdı. İngilis dilini də eyni maraqla, eyni sevgiylə, eyni məsuliyyətlə öyrənirdi. Müəllimləri deyirdi ki, Ceyhunda dil öyrənməyə xüsusi qabiliyyət var. İki dildə (rus və ingilis dili) səlis danışığı işində daima uğur qazanmağına şərait yaradırdı. Uşaqlıqdan Ceyhun 2-ci olmağı sevməzdi. Hər işdə öndə idi, birinci idi. Hər yerdə ata-anasının qürur mənbəyi idi. Haqsızlığa, ədalətsizliyə isə heç göz yummağı sevməzdi. Elə bəlkə də bu xüsusiyyətinə görə hüquqşünas olmağı qarşısına məqsəd qoyur və məqsədinə də çatır.

2011-ci ildə "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası" (hazırda Dövlət İmtahan Mərkəzi) tərəfindən ali təhsil müəssisələrinə qəbulla əlaqədar keçirilmiş imtahanda 600 bal toplayan Ceyhun Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olur.

2015-ci ildə məzun olandan sonra Ceyhun həqiqi hərbi xidmətə gedir, 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərinin iştirakçısı olur. Hərbi xidmətdən gələndən sonra xarici ölkələrdə olan universitetlərin magistraturasına imtahan verir və ABŞ-da magistraturaya daxil olur. Lakin müəyyən səbəblərə görə getməkdən imtina edir və "Azercell"də çalışmağa başlayır.

### Vətən sevgisi

“Vətəni sevməyən insan olmaz, olsa da o şəxsdə vicdan olmaz”-deyib atalarımız. Vətən müqəddəsdir. Biz bunu ta uşaqlıqdan bilirik. Əgər biz bu torpaqda gəziriksə, suyunu içib, çörəyini yeyiriksə, dar gündə də müdafiə etmək bizim ən ümdə vəzifələrimizdən biridir. Elə Ceyhun da Vətəni dar gündə müdafiə etməyi, həyatına səs verməyi özünə borc bilərək 2020-ci il sentyabrın 27-də başlanan Vətən Müharibəsinə könüllü olaraq yollanır. Ceyhun dostluğu ömrün dadı-duzu adlandırardı. Dostlarını heç vaxt yarıda qoymaz, onlara qarşı hər zaman sədaqətli davranardı.

Füzuli ətrafında döyüşlər zamanı düşmən inadla geri çəkilmək istəmirdi. Komandirin əmri ilə Ceyhun Şalıyev də düşmən səddini yaranların sırasındaydı. Bu an döyüş yoldaşlarından, dostlarından biri yaralanır. Ceyhun onu döyüşün içindən çıxartmağa tələsir. Axı o, dostunu orada qoya bilməzdi. Axı o, dostluğa qarşı sədaqətli, mərd biri idi. Lakin iki-üç addım uzaqlaşmamış qənşərlərinə mərmi düşür. Ceyhunun başına qəlpə dəyir - Ceyhun da, xilas etmək istədiyi dostu da oktyabrın 1-i tarixində qəhrəmancasına şəhid olur.

Bu gün artıq Ceyhun cismən aramızda yoxdu. Yaşasaydı bəlkə də, dövlətimizin ən savadlı və ədalətli hüquqşünaslarından biri olacaqdı. Lakin Allahın yazdığı bir qədər, alın yazısı var ki, ondan heç kim qaça bilməz.

Deyirlər şəhidlik zirvəsinə ucalanlar xüsusi seçilmiş insanlar olur. Elə Ceyhunun da həyatına nəzər saldıqda bu sözün nə qədər düzgün olduğunu görürük.

Sədaqət ana oğluna payızda nişan edəcəkdi. Xonçalar bəzəyəcəkdi. İndi o xonçaları ana oğlunun məzarı üstünə qoyub. Ananın oğlu üçün ürəyində tutduğu arzuları, istəkləri də o məzarın altındadır indi. Bir ana üçün axı bundan böyük nə dərd ola bilər?!

Ceyhun Şalıyev Sabunçu rayonu, Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilən şəhid Ceyhun Şalıyevin yaşadığı binanın girişində xatirə guşəsi, bir zamanlar addımladığı məhəllədə binalarının yaxınlığında xatirə bulağı yaradılıb. Sakinlər də, ordan keçənlər də xatirə guşəsinin, xatirə bulağının qarşısında şəhid ömrünə ehtiram kimi ayaq saxlayır.

Həmçinin şəhidimiz haqqında kitab və məqalələr də yazılıb. Bu kitablardan biri də dilçi alim Rəna Əlyar qızı Məmmədovanın müəllifi olduğu “Şəhid Ceyhun dastanı” kitabıdır.

Bu cür igid oğullarımız üçün nə qədər kitablar yazılsa, abidələr qoyulsa da haqqları heç bir zaman ödənməz. Şəhidlik zirvəsinə yüksələndə də ömrünün bahar çağını yaşayırdı Ceyhun. İllər ötəcək, hər kəs qocalacaq, lakin Ceyhun və Ceyhun kimi şəhidlər yaddaşlarda ömrünün bahar çağını yaşayan igid kimi qalacaqlar.

**İlahə RƏHİMOVA,**
**“Qəbələ”**